# Gədəbəy günü-gündən gözəlləşir

*Bu gün ulu öndər Heydər Əliyevin bizə miras qoyduğu Müstəqil Azərbaycanımız onun müəyyən etdiyi siyasi kursa uyğun olaraq sürətlə inkişaf edir. Çünki Azərbaycanın gələcək taleyi etibarlı əllərdədir. Ulu öndərin siyasi varisi cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin əsası dövlətimizi daha da qüdrətli etmək, torpaqlarımızın işğaldan azad olunmasına nail olmaqdır.*

*Gədəbəy Rayon İcra Hakimiyyətinin başçısı* ***Ramiz Yediyarov*** *belə söylədi:*



Gədəbəy rayonu Ermənistan Respublikası ilə sərhəd bölgəsində yerləşir. Rayonumuz həmişə respublikamızda öz ziyalıları ilə fərqlənmişdir. Tarixin bütün dövrlərində hətta ən ağır günlərində belə gədəbəylilər dövlətə, dövlətçiliyə və xüsusən də ölkə rəhbərinə sədaqətli olmuşlar. Bundan sonra da gədəbəylilər həmişə müstəqilliyimizin möhkəmlənməsi, inkişafı və Azərbaycanımızın qüdrətli dövlətə çevrilməsi istiqamətində daim ölkə Prezidenti cənab İlham Əliyevə dəstək olacaqdır.

Respublikamızın hər yerində olduğu kimi, Gədəbəy rayonunda da abadlıq-quruculuq işləri geniş vüsət almışdır. Son illərdə rayonumuzda aparılan abadlıq-quruculuq işləri bütün gədəbəylilərin sevincinə səbəb olur. İnsanların maddi-rifah halı ölkə Prezidentinin diqqət və qayğısı nəticəsində ilbəil yüksəlir. Rayon günü-gündən gözəlləşir, öz simasını kökündən dəyişir. Sözün əsl mənasında Gədəbəy rayonu özünün intibah dövrünü yaşayır. Ölkə Prezidenti cənab İlham Əliyevin 3 dəfə rayonumuza tarixi səfəri olmuşdur və hər gəlişi rayonun inkişafına stimul vermişdir. Belə ki, 56 kilometr uzunluğunda olan Gədəbəy-Novosaratovka -Qaravəlilər avtomobil yolu çəkilmiş, sərhəd kəndlərinə təbii qaz xəttinin çəkilməsinə başlanmış, onlarca tibb və mədəniyyət müəssisələri tikilmiş, hamımızın arzusunda olduğumuz 110 kilovotluq Zəyəm-Gədəbəy elektrik xəttinin tikintisi başa çatmışdır. Rayonda son 3 ildə strateji əhəmiyyətə malik olan 2 nəhəng körpü tikilib istifadəyə verilmişdir. 15 kilometr məsafədən Gədəbəy şəhərinə içməli su xətti çəkilmişdir. Şəhərin kanalizasiya sistemi yenidən qurulur.



Cənab İlham Əliyevin rəhbərliyi dövründə rayonda fəaliyyət göstərən məktəblərin maddi-texniki bazası kifayət qədər möhkəmləndirilmişdir. 2003-cü ilə qədər rayonumuzun məktəblərində bir ədəd də olsun kompüter olmadığı halda, bu gün hər 20 nəfər şagirdin ixtiyarına bir ədəd kompüter verilmişdir. Sevindirici haldır ki, Gədəbəy rayonunda son 10 ildə 70-ə yaxın məktəb binası yenidən tikilmiş və yaxud əsaslı təmir olunaraq pedaqoji kollektivlərin və şagirdlərin istifadəsinə verilmişdir. Onu da demək yerinə düşər ki, SSRİ-nin tərkibində olduğumuz 70 ildə aparılmayan bu işlər son 10-12 ilin nəticəsidir.



2015-ci ildə 180 şagird yerlik İsalı, 180 şagird yerlik Moruxlu kənd tam orta məktəbləri, 100 yerlik Gədəbəy şəhəri körpələr evi-uşaq bağçası tikilib istifadəyə verilmişdir.

Rayonun Çalburun, Nərimankənd, Parakənd və Leşkər kəndlərində təbii qaz xəttinin çəkilişi başa çatmış, Soyüdlü kəndinə içməli su xətti çəkilərək əhalinin istifadəsinə verilmişdir. Ümumiyyətlə, rayonun 33 kəndində əhali təbii qazdan istifadə edir.

Ümidvarıq ki, ölkə Prezidentinin qayğısı nəticəsində yaxın illərdə Gədəbəy rayonunun bütün kəndləri təbii qazla təmin ediləcəkdir.

**Eyvaz HƏMİD,**
**"Respublika".**